Minaxanım ƏSƏDOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
Tarix üzrə elmlər doktoru, professor əvəzi
minaxanim.asadli@mal.ru
https://orcid.org/0009-0002-1728-4188
https://doi.org/10.61226/12.3.4.2023.6

İRƏVANDA PEDAQOJİ MƏKTƏBİN YARADILMASI

Xülasə: Məqalədə Azərbaycanda maarifçilik fəaliyyəti, o cümlədən milli təhsilin yaranması və inkişafından söhbət gedir. Dövlətimizin uğurlu mədəniyyət siyasətinin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla milli köklərinə bağlı, intellektual və yüksək estetik zövqə malik olan yeni təfəkkürlü gənc nəsil yetişdirilməsi qeyd edilir. İrəvan pedaqoji məktəbinin fəaliyəti Qori Müəllimlər Seminariyası ilə müqayisəli təhlil edilir. Ölkə başçısı İlham Əliyevin ildə İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında Sərəncamın əhəmiyyəti qeyd edilir.

Açar sözlər: İrəvan, pedaqoji məktəb, maarifçilik, təhsil.

Минаханым АСАДОВА

СОЗДАНИЕ ПЕДАГОГИЧЕСКОЙ ШКОЛЫ В ИРАВАНЕ

Абстракт: В статье говорится об образовательной деятельности в Азербайджане, в том числе о создании и развитии национального образования. Реализация успешной культурной политики нашего государства ознаменована открытием многих темных страниц нашей истории и воспитанием молодого поколения с новым мировоззрением, связанного со своими национальными корнями, обладающего интеллектуальным и высоким эстетическим вкусом. Деятельность Ереванского педагогического училища сравнивают с Горийской учительской семинарией. Отмечается важность Указа о праздновании 140-летия Ереванской учительской семинарии в год Президента страны Ильхама Алиева.

Ключевые слова: Ереван, педагогическое училище, просвещение, образование.

Minakhanim ASADOVA

ESTABLISHMENT OF A TEACHING SCHOOL IN IRAVAN

Abstract: The article talks about educational activities in Azerbaijan, including the creation and development of national education. The implementation of the successful cultural policy of our state is marked by the opening of many dark pages of our history and the raising of a young generation with a new mindset, who is connected to its national roots and has intellectual and high aesthetic taste. The activity of the Yerevan pedagogical school is compared with the Gori Teachers' Seminary. The importance of the Decree on celebrating the 140th anniversary of the Yerevan Teachers' Seminary in the year of the President of the country Ilham Aliyev is noted.
Keywords: Yerevan, pedagogical school, enlightenment, education.

Mədəni dünyaya inteqrasiya yolu tutmuş Azərbaycan Respublikasında uğurlu mədəniyyət siyasətinin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla milli köklərinə bağlı, intellektual və yüksək estetik zövqə malik olan yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir ki, bu sahədə tarixi-kulturoloji irsin öyrənilməsi mühüm aktuallıq kəsb edir. Məhz bu məqsədlə ümummilli lider Heydər Əliyev dönə-dönə xatırladırdı ki, “Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir” [1, s 34].

Tarixi-mədəni irsimizin tədqiqi zəruriliyinin birbaşa ümummilli liderin dilindən səslənməsi diqqətəlayiq bir hal olmaqla, həm də bu sahədə aparılmalı olan elmi araşdırmaların əsas konturlarını çəkir. Heydər Əliyev milli-mənəvi dəyərlərin qorunması ilə bağlı bəyanatında deyirdi ki, "Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir" [2].

Tarixi irsə belə bir konseptual yanaşma ictimai və humanitar elm sahələri qarşısında mövcud bədii və ictimai fikir tarixini, ümumən mədəniyyət tarixini düzgün müəyyənləşdirilmiş milli konsepsiya işığında təqdim edilməsini tələb edir. Akademik Ramiz Mehdiyevin vurğuladığı kimi: "Dünya elminə inteqrasiya mərhələsində olduğumuz indiki vaxtda ictimai və humanitar elmlər sahəsində islahatların başlıca spesifikası müəyyənləşdirilməlidir. Bu elmlər hazırkı fazanın əsas xüsusiyyətlərini araşdırmalı və yeni ideyalar irəli sürməlidir" [3, s. 32].

Bu mənada mədəni-mənəvi köklərimizə qayıdış istiqamətində, milli mənsubiyyətimizin təkcə formal surətdə deyil, həm də məzmun baxımından təsbit olunması uğrunda aparılan mübarizə həm də elmi-nəzəri əsaslara malik olmalıdır.

XIX əsrin əvvəllərində də təhsil müsəlman ruhanilərinin təsir dairəsində idi. Məscidlərin və digər dini ocaqların nəzdində məktəb və mədrəsələr yetərincə fəaliyyət göstərirdi. Çoxillik ənənəvi təhsil öz işini, inkişafını davam etdirirdi. Lakin zamanın tələbinə uyğun olaraq qabaqcıl və daha mütərəqqi təhsilə böyük ehtiyac duyulurdu. 1829-cu ildə təqdim olunan təhsil nizamnaməsi bu vacib məsələni bir qədər də tezləşdirdi. Tədricən Gəncə, Qazax, Şəki, Şuşa, Naxçıvan, Ordubad, Şamaxı, Bakı, Quba, Lənkəran və digər qəza məktəbləri yarandı və fəaliyyətə başladı. Bu ikisinifli məktəblərdə şəriət, qiraət, hüsnxət, hesab, rus və Azərbaycan dili tədris edilirdi.

Müasir dövrdə milli təhsil sahəsi nisbətən az tədqiq olunmuş istiqamətlərdəndir. Bunun fundamental tədqiqatı milli maarifçiliyin inkişafını öyrənməyə imkan verir. Qori Müəllimlər Seminariyası milli təhsilimizin yaranmasında və inkişafında xüsusi əhəmiyyət kəsb etmişdir. Mütəfəkkir ziyalıların əksəriyyəti bu seminariyanın məzunları idi. Bu mənada milli təhsilin təşəkkülündə İrəvan Pedaqoji Məktəbinin də əvəzsiz rolu olmuşdur. Qori Müəllimlər Seminariyasının fəaliyyəti barədə indiyə qədər araşdırmalar aparılmış və bu qeyri-adi təhsil ocağının gördüyü işlər nəinki təkcə təhsil ictimaiyyətinə, həm də geniş oxucu kütləsinə çatdırılmışdır. Ancaq İrəvan Pedaqoji Məktəbinin tarixi, fəaliyyəti, Azərbaycan təhsilinin inkişafında oynadığı rol araşdırılmamış və tədqiq olunmamışdır. Yeri gəlmişkən onu da qeyd edək ki, həm Qori Müəllimlər Seminariyası, həm də İrəvan Pedaqoji Məktəbi öz dövrünün təhsil sahəsində flaqmanı olmuşdur. Onların hər ikisi elə bir dövrdə fəaliyyət göstərmişdir ki, həmin dövrdə pedaqoji kadrların hazırlanmasına böyük ehtiyac vardı. Bu ehtiyacı ödəmək üçün Qori Müəllimlər Seminariyası və İrəvan Pedaqoji Məktəbi öz çiyinləri üzərinə məsuliyyətli, həm də gərəkli olan bir işi götürmüşdür. Hər iki təhsil ocağının yetirmələri Azərbaycan təhsilinin inkişafında əllərindən gələni əsirgəməmişlər. Hər iki təhsil ocağının qeyri-adi faəliyyəti Azərbaycan təhsilinin tarixinə qızıl hərflərlə yazılmalıdır. [5]

XX əsrin əvvəllərində pedaqoji kadrlara böyük ehtiyac vardı. Bu məqsədlə İrəvanda hazırlıq kursları yaradılmışdı. 1923-cü ildən başlayaraq 3 il ərzində burada 143 müəllim hazırlanmışdı. Bu kursların təşkilində Bala Əfəndiyevin, Mehdi Kazımovun, Mustafa Hüseynovun və digərlərinin xidmətləri böyük olmuşdur. Irəvan ziyalılarının səyi və yüksək təşkilatçılığı sayəsində 1924-cü il oktyabr ayının 15-də İrəvan Türk Pedaqoji Texnikumu açılmışdır. Texnikumun direktoru Mehdi Kazımov, ictimaiyyət müəllimi Bala Əfəndiyev, ana dili müəllimi Əsgər Əsgərzadə, təbiət müəllimi Cəmil Əliyev olmuşdur. Onu da qeyd edək ki, İrəvan Türk Pedaqoji Texnikumu çətin şəraitdə fəaliyyətə başlamışdır.

İrəvan Türk Pedaqoji Texnikumunda fəaliyyətə başlayan Yusif Məmmədəliyev, Ələşrəf Bayramov, Əsgər Əsgərzadə, Bülbül Kazımova, Miryusif Mirbabayev, Məhəmməd Əzimzadə, İsmayıl Babayev və digər ziyalıların pedaqoji kadrların hazırlanmsında mühüm rolu olmuşdur.

Pedaqoji Texnikumda həmçinin "Mədəniyyət ocağı", "Mədəni hücum", "İrəli" adlı divar qəzetlərinin çap olunmuş, tələbələr yüksək ixtisas aldıqları kimi, cəmiyyətin aparıcı şəxsiyyətləri kimi tanınmışlar. Texnikumun ilk məzunlarından Əmir Abasquliyev, Adil Axundov, Nəriman Əliyev, Rübabə Bağırbəyova, Nəsir Əliyev, Nəzər Paşayev və başqalarını qeyd etmək olar.

1936-cı ildə Pedaqoji Texnikumun Pedaqoji Məktəb adlandırılmışdır. İrəvan Pedaqoji Məktəbinin 1948-ci ildə Azərbaycanın Xanlar (indiki Göygöl) rayonuna köçürülmüş və 1972-ci ilə qədər orada fəaliyyət göstərmişdir. [4]

Azərbaycanın təhsil tarixində özünəməxsus yeri olan Irəvan pedaqoji məktəbinin yaradılması da maarifçilik baxımından mühüm addım idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 29 dekabr 2021-ci ildə İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamda deyilir:"İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşmışdır. İrəvan xanlığı çar Rusiyasının tərkibinə qatıldıqdan sonra burada dünyəvi təhsilə xüsusi diqqət yetirilməsində həmin mühitin özü əhəmiyyətli rol oynamışdır. XIX əsrin ikinci yarısından etibarən Cənubi Qafqazda maarifçilik hərəkatı geniş vüsət aldı. Regionda dünyəvi təhsil verən yeni tipli məktəbin – İrəvan Müəllimlər Seminariyasının açılması da məhz bu vaxtlara təsadüf edir.1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır. Görkəmli maarifpərvər Firidun bəy Köçərli seminariyanın ilk müəllimlərindən olmuş, geniş mədəni-maarif işləri aparmışdır. Seminariyanın məzunları sırasında xalqımızın bir çox tanınmış şəxsiyyətləri və dövrünün görkəmli ziyalıları vardır".[6]

Azərbaycanda əsasən XIX əsrin ikinci yarısından başlanan yeniləşmə prosesinin XX əsrin əvvəllərində milli-mədəni intibahla yekunlaşdı. Bu dövrdə pedaqoji məktəblərin yaranması milli azadlıq hərəkatı milli düşüncə amili inkişafına təkan verdi. Müstəqil Azərbaycan Respublikasının yaranmasına və bərpa edilməsinə səbəb oldu. Bu gün fərəhlə deyə bilərik ki, başqa sahələrdə olduğu kimi təhsil sahəsində də ölkəmiz dünyanın bir çox dövlətləri yanaşı addımlayır.

Ədəbiyyat

1. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Bakı, İqtisad Universiteti nəşriyyatı, 2001, 90 s.
2. Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı. "Ədəbiyyat qəzeti", 13 avqust 2001-ci il.
3. Mehdiyev R. İctimai və humanitar elmlər: zaman kontekstində baxış // "Fəlsəfə və sosial-siyasi elmlər", 2009, № 4, s. 9-32.
4. Cəlal Allahverdiyev, Cəfər Cəfərov. "İrəvan Pedaqoji Məktəbi". ADPU-nəşriyyatı. Bakı-2015.105 səh.
5. https://old.xalqqazeti.com/az/news/education/88425
6. https://president.az/az/articles/view/55116

Məqalənin redaksiyaya daxilolma tarixi: 07.12.2023
Məqalənin çapa qəbul olunma tarixi: 07.12.2023